# Qarabağ və Şərqi Zəngəzurun postmüharibə prioritetləri

**Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə təsdiq edilən "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın əhəmiyyəti və icrası barədə qəzetimizin suallarını İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) icraçı direktoru, iqtisad elmləri doktoru, professor Vüsal Qasımlı cavablandırır.**



***(əvvəli qəzetimizin 20 dekabr 2022-ci il tarixli sayında)***

***– Dövlət tərəfindən yaxın 5 il ərzində vətəndaşlarımızın layiqli həyat səviyyəsinin təmin olunması və azad edilmiş bölgələrdə keyfiyyətli yaşayış mühitinin formalaşdırılması istiqamətində hansı işlər görüləcək?***

– Qeyd etdiyim kimi, Azərbaycan bölgənin bərpasında öz modelini yaradır. Bu nöqteyi-nəzərdən şəhər, qəsəbə və kənd yaşayış məntəqələrinin yaradılmasında vurğulanan modelin tətbiqi istisna deyil. İqtisadi səmərəlilik prinsipi nəzərə alınaraq, artıq ərazilərdə inventarizasiya işləri yekunlaşıb. Şəhərsalma və yaşayış məntəqələrinin bütün regional xüsusiyyətlərinin nəzərə alınması məqsədilə işğaldan azad edilmiş regionların ümumi planı, eləcə də Ağdam şəhərinin Baş planı hazırlanıb. Dövlət Proqramının icrası ilə baş və müfəssəl planlarının hazırlanması istiqamətində işlər davam etdiriləcək. Növbəti addım olaraq xüsusi mühafizə olunan təbiət ərazilərinin sərhədlərinin müəyyənləşdirilməsi, yaşıllaşdırma işlərinin aparılması və infrastruktur obyektlərinin tikintisi nəzərdə tutulur. Müasir yanaşmalar əsasında digər regionlar üçün də pilot nümunə hesab edilən "ağıllı kənd" – Ağalı kəndi yaradılıb. Regionun fasiləsiz elektrik enerjisi ilə təmin edilməsi məqsədilə bir çox infrastruktur obyektləri qurulub. Dövlət Proqramının icrası ilə digər kommunal xidmətlər – içməli su təchizatı, isitmə və qazanxana sistemləri, rabitə xidmətlərinin təşkili istiqamətində tədbirlər davam etdiriləcək.

Əlbəttə, layiqli həyat səviyyəsi dedikdə, ilk ağıla gələn tələblərdən biri də vətəndaşlarımızın keyfiyyətli təhsil sisteminə əlçatanlığının təmin olunmasıdır. Bu, həm də ona görə vacibdir ki, bölgənin uzunmüddətli dövrdə inkişafı



həmin ərazilərdə yaşayan və fəaliyyət göstərən fərdlərin bilik və bacarıqlarından mütənasib formada asılıdır. Buna görə də Dövlət Proqramında bölgədə bərpa işlərində təhsil infrastrukturunun qurulması xüsusi fəaliyyət istiqamətlərindən biri kimi müəyyən edilmişdir. Proqramda təhsilin bütün pillələrini nəzərdə tutan infrastrukturun yaradılması qarşıya mühüm vəzifə kimi qoyulur. Bu kontekstdə, həmçinin peşə təhsil müəssisələrinin yaradılmasına da diqqət ayrılır. Bundan başqa, yerli və xarici ali təhsil müəssisələrinin filiallarının yaradılması istiqamətində görüləcək işlər və digər qeyd etdiyim nüanslar bölgədə insan kapitalının formalaşdırılmasını nəzərdə tutan dövlətin uzunmüddətli dövr investisiyası hesab edilə bilər.

Keyfiyyətli yaşayış mühitində müasir səhiyyə xidmətlərinin göstərilməsinə imkan verən tibb infrastrukturu önəmli yer tutur. Böyük Qayıdışa dair I Dövlət Proqramının icra dövründə bir çox tibb müəssisələrinin tikintisi və xidmətlərinin təşkili işləri görüləcək. Azad olunmuş ərazilərin turizm potensialı da nəzərə alınaraq, sanatoriya və düşərgələrin inşası da nəzərdə tutulur. Əhalinin sağlamlığının təmin olunması məqsədilə olimpiya-idman komplekslərinin, idman zallarının və ölkəmizin futbol flaqmanı olan "Qarabağ" futbol klubunun öz doğma yurdunda fəaliyyətini reallaşdıran "İmarət" stadionunun tikintisi Dövlət Proqramında icra ediləcək tədbirlər kimi müəyyənləşdirilib.

Şuşa başda olmaqla işğaldan azad edilmiş bölgələr ölkəmizin mədəniyyət beşiyi hesab olunur. Məhz bu səbəbdəndir ki, bu regionda yaradıcı sənaye potensialı xüsusilə fərqlənir. Dövlət Proqramının icrası nəticəsində mədəniyyət tədbirlərinin keçirilməsinə və mədəni irsimizin daşıyıcısı olan abidələrimizin bərpasına xüsusi diqqət ayrılacaq. Proqramın gerçəkləşməsi müddətində hər il Xarıbülbül Folklor Festivalının keçirilməsi nəzərdə tutulur. Bundan başqa, 2022–2026-cı illər ərzində dövri olaraq "Vaqif Poeziya Günləri" təşkil olunacaq. İşğal və Zəfər muzey kompleksləri yaradılacaq. Müvafiq bölgələrdə Heydər Əliyev Mərkəzləri və digər mədəniyyət müəssisələri fəaliyyətə başlayacaq. İşğal müddətində kultursid cinayətlərinə məruz qalan mədəniyyət abidələrimizin hərtərəfli bərpa və rekonstruksiyası istiqamətində tədbirlər həyata keçiriləcək. Bu istiqamətdə görüləcək işlər şübhəsiz ki, bölgədə turizmin inkişafının ilkin mənzərəsini müəyyənləşdirir.

Dövlət Proqramında bölgə sakinlərinə dövlət xidmətlərinin təklifi üçün ölkəmizin ən uğurlu modellərindən hesab olunan "ASAN xidmət" mərkəzlərinin yaradılması da nəzərdə tutulur. Artıq Zəngilan rayonunun Ağalı kəndində bu xidmətin təşkili həyata keçirilib. Bununla paralel olaraq, bölgədə vətəndaşların dövlət tərəfindən təklif edilən əmək, sosial müdafiə və məşğulluq xidmətlərinə operativ formada əlçatanlığını təmin edən DOST Mərkəzləri şəbəkəsi yaradılacaq. Vətəndaşlarımızın reabilitasiya imkanlarının artırılması məqsədilə əlilliyi olan şəxslər üçün Kəlbəcər rayonunda xüsusi Mərkəz açılacaq. Sakinlərin yaşayış sahələrini ipoteka kreditləşməsi hesabına əldə etməsi istiqamətində tədbirlər reallaşdırılacaq. Bölgədə tikinti fəaliyyəti ilə məşğul olan subyektlərin maliyyə imkanlarının artırılmasına xüsusi dəstək veriləcək.

***– Bəs kompleks şəkildə həyata keçiriləcək tədbirlərin əsas hədəfləri və yekun istiqaməti nədir?***

– Bu suala cavab olaraq vurğulamaq istərdim ki, Azərbaycanda dövlət siyasətinin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Şübhəsiz ki, Dövlət Proqramında müəyyənləşdirilmiş tədbirlərin hər biri işğaldan azad edilmiş torpaqlarımızda vətəndaşlarımızın layiqli həyat səviyyəsinin gerçəkləşməsinə xidmət göstərir. Buna görə də Dövlət Proqramında əhalinin geri qayıdışı və dayanıqlı icmaların yaradılması məsələlərinə xüsusi diqqət ayrılır.

Dövlət Proqramında əhalinin məskunlaşması ilə bağlı sosioloji sorğuların keçirilməsi nəzərdə tutulur ki, bunun əsasında ilkin proqnozlar müəyyənləşdiriləcək. Proqramın sonuna qədər 45 min ailəni əhatə edən sorğular keçirilməsi nəzərdə tutulur. Sənədin icra dövrü ərzində geniş formada təbliğat, təşviqat işləri aparılacaq və könüllülük təcrübəsi əsasında gənclərin bu prosesdə iştirakı stimullaşdırılacaq. Proqramın icrası yekunlaşacağı dövrə qədər ümumilikdə 34 min 500 ailənin yeni tikilmiş yaşayış məntəqələrinə köçürülməsi planlaşdırılır. Həmçinin yeni məskunlaşmış ailələrin reinteqrasiya və adaptasiyasını gücləndirmək məqsədilə peşəkar təlimlər keçiriləcək, eləcə də bununla bağlı xüsusi "qaynar xətt" yaradılacaq. Öz doğma torpaqlarına qayıdan vətəndaşlarımız üçün aktiv məşğulluq tədbirləri reallaşdırılacaq, icma resurs və ailə mərkəzləri formalaşdırılacaq.

***– Məlumdur ki, Ermənistanın Azərbaycanın tarixi torpaqlarında zəruri strateji əhəmiyyətli infrastukturu məhv etməsi regionun nəqliyyat və təchizat sisteminin tamamilə yararsız hala salınması ilə nəticələnib. Belə ki, "Böyük Qayıdışa dair I Dövlət Proqramı"nda işğaldan azad olunmuş ərazilərdə strateji əhəmiyyətli infrastrukturun qurulması prioritet istiqamətlərdən biri kimi müəyyənləşdirilib. Bu baxımdan Böyük Qayıdışın quruculuq planında zəruri infrastrukturun bərpa prosesi necə formalaşdırılıb və hansı fəaliyyət istiqamətləri əhatə olunub?***

– Qeyd etdiyiniz kimi, işğaldan azad edilmiş ərazilərdə bərpa prosesinin ilkin mərhələsində nəqliyyat sisteminin fasiləsiz fəaliyyəti üçün yolların çəkilməsi, telekommunikasiya şəbəkələrinin qurulması, elektrik, su, istilik və qaz təchizatının təmin edilməsi Dövlət Proqramının əsas prioritet istiqamətlərindən biri kimi müəyyənləşdirilib ki, bu da təsadüfi deyil. Əhalinin doğma torpaqlarına qayıtması və yüksək həyat səviyyəsinin təmin olunması üçün zəruri infrastrukturun yaradılması vacib amildir.

Qürurverici haldır ki, praqmatik siyasət kursuna malik olan Azərbaycan postmüharibə mərhələsində düşməndən təmizlənən ərazilərdə qısa müddət ərzində yol-nəqliyyat, elektrik enerjisi, eyni zamanda, qaz və su təchizatı istiqamətlərində infrastrukturun formalaşdırılmasına nail olub. Məhz 2021-ci ilin 7 noyabrında açılışı həyata keçirilən Zəfər Yolu qısa müddətdə belə bir infrastrukturun bərpasına bariz nümunədir. Regionda və yol tikintisi tarixində qısa zamanda – cəmi 10 ay ərzində hələ bu cür genişmiqyaslı, respublika əhəmiyyətli yolun inşası aparılmayıb.

Bildirim ki, 2026-cı ilin sonuna qədər adıçəkilən proqram çərçivəsində avtomobil yollarının tikintisi, şəhərlərarası müntəzəm avtobus marşrutlarının, avtovağzalların, taksi dayanacaqlarının yerlərinin müəyyənləşdirilməsi, dəmir yolu infrastrukturunun təmir-bərpası, yenidən qurulması planlaşdırılır. Yeri gəlmişkən, artıq Şuşa, Ağdam və Füzuli istiqamətində şəhərlərarası müntəzəm avtobus marşrutları istifadəyə verilib və bu istiqamətdə intensiv işlər aparılır.

Dövlət Proqramında işğaldan azad edilmiş ərazilərin turizm potensialının tam reallaşdırılması, inkişafın təmin edilməsi məqsədilə üç hava limanının tikintisi planlaşdırılır. Burada onu da qeyd etmək yerinə düşər ki, cənab Prezidentin tapşırığı ilə Füzuli və Zəngilan beynəlxalq hava limanları artıq tikilib istifadəyə verilib. Bununla yanaşı, Dövlət Proqramı çərçivəsində təməli 2021-ci ildə qoyulan Laçın hava limanının inşasının 2024-cü ildə yekunlaşdırılacağı nəzərdə tutulur. Qeyd edim ki, Laçın rayonunun Qorçu kəndi ərazisində inşa edilən aeroport Azərbaycanda dəniz səviyyəsindən ən yüksəkdə yerləşən hava limanı olacaq.

Postmüharibə bərpa prosesinin digər bir vacib elementi kimi elektroenergetika sektorunun yenidən qurulması da ön plandadır. Belə ki, işğaldan azad edilmiş ərazilərdə dayanıqlı elektrik enerji təchizatına nail olunması məqsədilə elektrik infrastrukturunun – yeni ötürücü xətlər, transformatorlar, yarımstansiyalar, elektrik stansiyalarının tikilməsi xüsusi önəm daşıyır. Enerji müstəqilliyimizin daha da möhkəmləndirilməsi, eləcə də düşməndən təmizlənən torpaqlarda əhalinin və iqtisadiyyatın elektrik enerjisinə olan tələbatının tamamilə ödənilməsi istiqamətində ölkə başçısı tərəfindən qarşıya qoyulan tədbirlər uğurla icra olunur. Sevindirici haldır ki, işğaldan azad edilmiş ərazilərdə elektrik enerjisi təchizatı sisteminin, o cümlədən, bir çox yeni yarımstansiyaların (YS) və elektrik verilişi xətlərinin (EVX) qurulması istiqamətində 110/35/10 kV-luq 10 rəqəmsal yarımstansiyanın ("Şuşa", "Füzuli", "Kəlbəcər", "Cəbrayıl", "Zəngilan", "Qubadlı", "Ağdam-1", "Ağdam-2" "Qorçu", "Şükürbəyli") tikinti işləri müvəffəqiyyətlə tamamlanıb. Proqram çərçivəsində ölkənin ümumi enerji sisteminin əhatəli inteqrasiyası məqsədilə 2026-cı ilin sonuna qədər




Cəbrayıl enerji qovşağının yaradılması və Naxçıvan Muxtar Respublikasının da ölkənin elektrik enerjisi şəbəkəsinə inteqrasiyası ilə bağlı şəbəkənin qurulması nəzərdə tutulur.

İşğaldan azad edilmiş ərazilərdə əhalinin yaşayış təminatı üçün zəruri şərtlərin reallaşdırılması istiqamətində qaz və su təchizatı sisteminin formalaşdırılması da mühüm yer tutur və bu, Dövlət Proqramında öz əksini tapıb. Suvarılan torpaqların suvarma suyu ilə təminatı və su ehtiyatları ilə bağlı formalaşdırılan məlumatların (sənədlərin) Elektron Su Təsərrüfatı İnformasiya Sisteminə (ESTİS) davamlı inteqrasiyası, mövcud su anbarlarının, suvarma və paylayıcı kanalların, nasos stansiyalarının, subartezian quyularının, hidroqovşaqların və digər su təsərrüfatı obyektlərinin mərhələli şəkildə təmiri, bərpası, həmçinin yenilərinin tikintisi, eyni zamanda, yeraltı və yerüstü su mənbələrinin qiymətləndirilməsi, məlumat bazasının, habelə elektron su xəritəsinin hazırlanması ilə düşməndən təmizlənən sahələrin su təchizatı magistral sisteminin qurulması hərtərəfli təmin olunacaq. Xüsusilə qeyd etmək istərdim ki, 30 il əvvəl mənfur düşmən tərəfindən dağıdılmış Suqovuşan su anbarının təmiri və bərpası su təminatı çətin olan ərazilərə suyun verilməsinə, gələcəkdə regionda əkinlərin davamlı aparılmasına, eyni zamanda, su qıtlığının aradan qaldırılmasına, kənd təsərrüfatında yüksək məhsuldarlığın əldə edilməsinə öz töhfəsini verəcək.

Bərpa prosesinin həyata keçirilməsi istiqamətində müasir standartlara cavab verən qaz təchizatı sisteminin formalaşdırılması üçün qaz nəqli şəbəkəsinin qurulması da qarşıda duran əsas vəzifələrdən biridir. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının işğaldan azad edilmiş ərazilərində qaz nəqli şəbəkələrinin qurulması istiqamətində tədbirlər müəyyənləşdirilib, müvafiq tikintilərin layihələndirilməsi və işlərin mərhələli şəkildə həyata keçirilməsi diqqət mərkəzində saxlanılıb.

Eyni zamanda, ölkənin vahid informasiya-kommunikasiya məkanına hərtərəfli inteqrasiya üçün telekommunikasiya şəbəkələrinin qurulmasının qabaqcıl standartlar və təcrübəyə uyğun həyata keçirilməsi planlaşdırılır.

Proqram çərçivəsində 2026-cı ilin sonuna qədər 97 məntəqə üzrə şəhərlərarası (rayonlararası) və yerli magistral telekommunikasiya xətlərinin layihələndirilməsi, habelə qurulması nəzərdə tutulub ki, artıq müxtəlif istiqamətlərdə 300 kilometrə yaxın fiber-optik kabel xətləri çəkilib, bu ərazilərdə fəaliyyət göstərən aidiyyəti dövlət orqanları tələbata uyğun olaraq xüsusi rabitə və internet xidmətləri ilə təmin edilib.

İnformasiya-kommunikasiya texnologiyaları sürətlə dəyişən dünyada hazırda cəmiyyətin inkişafına təsir göstərən əsas amillərdən birinə çevrilib. Burada onu da qeyd etmək yerinə düşər ki, 44 günlük Vətən müharibəsi zamanı biz bir daha şahid olduq ki, düşmən üzərində üstünlük təkcə silah gücü ilə deyil, həm də informasiya, texnoloji üstünlüklər hesabına əldə edilir. Bununla xatırlatmaq istərdim ki, azad edilmiş ərazilərdə müasir poçt, telekommunikasiya, o cümlədən, internet, mobil rabitə xidmətləri, radio-televiziya yayımının gerçəkləşdirilməsi göstərilən xidmətlərin regionda müasirlik, yüksək texnoloji imkanların prinsipləri əsasında vahid məkanda cəmlənməsinə böyük töhfə verəcək.

***(ardı növbəti sayımızda)***

***Müsahibəni qələmə aldı:***
***Vaqif BAYRAMOV, "Xalq qəzeti"***